# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 105** **Bakı şəhəri, 19 mart 2022-ci il**

***İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestrinin yaradılması və "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında***

"İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 avqust tarixli 1422 nömrəli Fərmanının 1.1-ci və 1.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri yaradılsın.

**2.** "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki, "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının müvafiq olaraq 7.4-cü və 7.8-ci bəndlərinə uyğun apardıqları inventarlaşdırma işlərinin nəticələrini əks etdirən məlumatları 1 (bir) ay müddətində Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təhvil versinlər.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2022.- 20 mart.- S.7.